***Özündə 1 saylı mədəniyyət evi, 1 kənd mədəniyyət evi, 7 kənd klubu, 1 rayon mərkəzləşdirilmiş kitabxana sistemi, 1 rayon mərkəzi kitabxanası, 1 rayon uşaq kitabxanası, 18 kitabxana filialı, 1 rayon uşaq incəsənət məktəbini birləşdirən çox da geniş olmayan siyəzən rayon mədəniyyət şöbəsinə Bakı Dövlət Universitetinin məzunu Nigar Qəniyeva rəhbərlik edir. O, görülmüş işlərdən, kollektivin qayğılarından danışır:***

# Dönüş yaradılır

- Qanlı Yanvar faciəsinin on beş ili tamam olmuş, Şəhid Nizami Həmzəyevin adını daşıyan rayon mərkəzi kitabxanasında bununla bağlı anma mərasimi keçirilmişdir. Tədbir ədəbi - bədii kompozisiya ilə başa çatmışdır.

Mədəni - kütləvi tədbirlərin hazırlanıb keçirilməsində rayon mədəniyyət evi mühüm rol oynayır. Mədəniyyət evinin nəzdində 6 dərnək fəaliyyət göstərir: vokal, rəqs, dərnəkləri, nağara qrupu, instrumental ansambl, təsviri incəsənət, bədii qiraət dərnəkləri. 4 müəllimin rəhbərliyi ilə aparılan dərnəklərdə 50 şagird məşğul olur.

2004-cü ilin may ayında məktəblilərin mahnı ifaçılığı, musiqi alətlərində ifa və bədii qiraət üzrə rayon "İstedad sorağında" müsabiqəsi keçirilmiş, qalib gənclər, İdman və Turizm Nazirliyinin keçirdiyi folklor müsabiqəsinə, həmçinin, Astarada uşaq muğam ifaçılarının II Respublika müsabiqəsinə qatılmışlar.

Gənc rəssamaların əsərləri Səttar Bəhlulzadə adına sərgi salonunda müxtəlif mövzularda keçirilən rəsm əsərləri sərgilərində uğurla nümayiş etdirilmişdir.

Rayon Uşaq İncəsənət məktəbində 7 şöbə fəaliyyətdədir: fortepiano, tar, kamança, qarmon, nağara, klarnet və rəssamlıq şöbələri. 35 müəllim, 250 şagird məktəbin kontingentini təşkil edir.

Siyəzən rayon mərkəzi kitabxanası "Kitablar aləmində İrfan dünyası". Rayon mərkəzi kitabxanasına veteran kitablar aləminə bağlı ömür sahibi Nuriyyə Mövsümova rəhbərlik edir. Qarşıdan Nuriyyə xanımın 65 illiyi gəlir.

Rayon mərkəzləşdirilmiş kitabxana sisteminin 10.000 oxucusu vardır. MKS 27.000 kitab fonduna malikdir, 1000- dən yuxarı ədəbiyyat latın qrafikalıdır.

Siyəzənin "Neftçilər" parkına giriş indi möhtəşəm arkadan, tağın altından, üç qapıdandır. Pillələri enən kəs ilk növbədə C. Cabbarlının ucalan heykəliylə qarşılaşır. Böyük dramaturqa heykəl 1970-ci ildə yapılmış, onun açılışı may ayının 31-də olmuşdur. Heykəlin müəllifi memar Qorxmaz İmamverdiyevdir.

"Neftçilər" parkı 35 ildir ki, eyni zamanda C.Cabbarlı adına park da adlanır. Son illər müasir milli park tələbatına tam uyğun olaraq abadlaşdırılmış və şəhərin mərkəzi mədəniyyət və istirahət parkına çevrilmişdir. Parkın bir guşəsində Şəhidlər Xiyabanı vardır. Park və xiyabanlarda 300 ədəd " Xan çinarı" əkilmişdir.

Bakı - Quba şosesi şəhərin mərkəzindən keçir. Magistral yolun hər iki tərəfə uzanan mərkəzi küçəsi abadlaşdırılmış, gecələr işıqlara və çilçiraqlara - nur selinə qərq olur. Nurpaylayanların böyük əməyi olan mərkəzi küçə indi iftixarla böyük öndər H. Əliyevin adını daşıyır.

Bakı istiqamətindən şəhərin girəcəyinə heykəltəraş Münəvvər Rzayevanın yaratdığı şair M. Müşfiqin büstü qoyulmuşdur.

Azərbaycanın əməkdar artisti, qüdrətli sənətkar, böyük güləş ustası B. Səfəroğlunun adını daşıyan "Siyəzənneft" NQÇİnin mədəniyyət sarayı Böyük Vətən müharibəsindən sonrakı illərdə tikilmiş, bu gün də şəhərin mədəni simasında ümdə yer tutan memarlıq - arxitektura görkəminə malik binalardan biridir. Saray kitabxanası zəngin ədəbiyyata, kitab fonduna malikdir.

Mədəni - kütləvi tədbirlərin çoxu, konsert tamaşaçıları, meydan tamaşaçıları açıq səma altında, meydanda keçirilir. Mədəniyyət sarayının qarşısında dünya poeziyasının günəşi N. Gəncəvinin heykəli ucalır.

Siyəzən Rayon Mədəniyyət Şöbəsi yeni qayğılarla yaşayır.

**Tahir Səlimov,**
**"Mədəni - maarif"in zona müxbiri**